# AZƏRBAYCAN RESPUBLİKASININ ENERGETİKA NAZİRLİYİ

## Ə M R

№ 02

Bakı şəhəri "11" fevral 2016 il

**Azərbaycan Respublikasının Energetika Nazirliyinin Apellyasiya Şurasının yaradılması haqqında**

"Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanlarında Apellyasiya Şuralarının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 3 fevral tarixli Fərmanının 1-ci hissəsini və həmin Fərman ilə təsdiq edilmiş "Mərkəzi icra hakimiyyəti orqanlarının Apellyasiya Şuraları haqqında Nümunəvi Əsasnamə"nin 4.1-ci bəndini rəhbər tutaraq

**Əmr edirəm:**

1. Azərbaycan Respublikasının Energetika Nazirliyinin Apellyasiya Şurası yaradılsın.
2. Azərbaycan Respublikasının Energetika Nazirliyinin Apellyasiya Şurasının aşağıdakı tərkibi təsdiq edilsin:

| | |
|---|---|
| Gülməmməd Cavadov | - Energetika nazirinin müavini, sədr |
| Amil Mürsəliyev | - Elektroenergetika şöbəsinin müdiri, sədr müavini |
| İbrahim Ağayev | - Hüquqi münasibətlər şöbəsinin müdiri, üzv |
| Elxan Həşimov | - Enerji siyasəti və yanacaq-enerji resursları şöbəsinin müdiri, üzv |
| Əsəd İsmayılov | - Dövlət qulluğu və kadrlar şöbəsinin müdiri, üzv |
| Rəna Sadıxzadə | - Ümumi şöbənin müdir müavini, üzv |

Namiq Salamov - Enerji səmərəliliyi, alternativ və bərpa olunan enerji mənbələri şöbəsinin Texniki tənzimləmə sektorunun müdiri, üzv

3. Apellyasiya Şurasının sədri:

3.1. Apellyasiya Şurasının Katibliyinin rəhbəri və tərkibi haqqında təklifləri təqdim etsin.

3.2. "Mərkəzi icra hakimiyyəti orqanlarının Apellyasiya Şuraları haqqında Nümunəvi Əsasnamə"dən irəli gələn Apellyasiya Şurasının fəaliyyətinin təşkili ilə bağlı digər zəruri tədbirləri görsün.

4. Ümumi şöbə (E.Rzayeva) bu əmrin surətini Apellyasiya Şurasının üzvlərinə çatdırılmasını təmin etsin.

5. Əmrin icrasına nəzarəti öz üzərimdə saxlayıram.

Nazir Natiq Əliyev